

■ **Heydər Bayat**

*Seyid Heydər Bayat 1976-cı ildə Zəncanın Bulaq kəndində doğulub. İbtidai və orta təhsilini Zəncanda alıb. 18 yaşından Qumda təhsilini davam edib. Ana dili və ədəbiyyata dərin maraq göstərən Heydər Bayat 2007-ci ildən Qum şəhərində "Türk ədəbiyyatı otağı" adlı bir ədəbiyyat ocağı qurub, türk dili və ədəbiyyatı üzrə elmi araşdırmalar aparır. Bir çox şeir və məqalələri çeşidli qəzet, dərgi və antologiya kitablarında dərc olunub. "Alma yolu" şeir toplusu və Ərak bölgəsinin klassik türk yazarlarının təzkirələrini özündə birləşdirən "İki ayna arasındakı alma" kitabı işıq üzü görüb.*

**Təqdim edən: Pərvanə Məmmədli**

## DAR AĞACI

Boynumu qucaqlamağa
Bilirəm,
Boyun çatmaz -
Bu ölkənin dar ağacları
Ucadır
Belə ki, darları uca qururlar
Son görüşdə
Boynumu qucaqlamağa
Bilirəm,
Boyun çatmaz.

## ŞƏHƏR YOXA ÇIXDI

ya pıçıldadım,
ya bağırdım
səninlə
adam kimi, danışa bilmədim
şəhər tarixin çiynində silkələnir
və hərdən
gələnəklər soncuq atıb
çox şeyi pozur.

Şəhər
gələcəyinə baxır
tozlu yolların
çox, çox uzağında
iki könüllü dayanıb
şəhər mıı bir küçəli
şəhər dolaşıq
göydələnlər içində, kim
saman suvaq evlərdə, kim

siçanları da unutma
onların
bu şəhərin şüuraltında
böyük rolları var
quşlara da pay saxla
- az da olsalar -
dağarcığın dibindəki xırda çörəklərdən

Mənim payım,
ayrılıqdan başqa
və uzun, düşüncə gecələri
ardıcıl
mənim üçün yandırlan siqaretlər
və kül qabında kül
və ovcumda kül
səndən başqa kimi düşünürəm?!

## ŞƏHƏR MƏNİ SİLKƏLƏDİ

mən, tərəfsiz deyirəm
yenilmədim
səni gözləyərkən
şəhərə yox, dedim
və gözəllik
dəftərimin yarpağında
ən qabarıq sözcük
şəhərə yox, dedim
güzgülər önündə
anam
arxamda dayandı
çiyini üstündən
görünürdü:
çay
  ağac
    və
      dağ
güzgülər önündə
şəhərə, yox dedim
şəhər
yoxa çıxdı.

## YALANÇILAR

Uşaqlıqda
Ay əllərimi aldatdı gölməçədə
Cavanlıqda
Sən ürəyimi aldatdın
Həyətdə
İndi baxıram
Yol ayaqlarımı aldadıb küçədə

* * *

Bilirsiz,
hərdən o gecikəndə
siyasətə də yozuram
ağlıma sığmazdı, bir gün
ana ilə başlanan bir söz birləşimi
siyasi anlam daşısın.
Nəysə, ana!
İndi başqa bir dildə səccadə üstündə
təsbeh çevirirsən
və siyasətçılər
sənə nifrətlə baxırlar
unutmayıbsan ki, bir gün
"lay lay dedim yatasan" oxumuşdun öz dilində.
Ana!
Heç ağlına sığmazdı
sən də bir gün
siyasət mövzusu olasan
və ədəbilşəməmiş dildə oxuduğun mahnılar
zəlzələ sala dil qurumlarının binasına
indi də düzünü de
başqa dildə təsbeh çevirərkən
nə istəyirsən Tanrıdan?
Sevgilimin itkin ayaq izlərinə
işıq salmağını,
yoxsa sənin səcdə etdiyin dilə alışmağımı
yoxsa,
Tanrım, oxuduğum laylayları unutsun oğlum,
deyirsən
bilməyirəm
ancaq
səcdə etdiyin yerdən kənarda zəlzələdir ana
səcdə etdiyin yerdən kənarda
ana!

## BEŞİNCİ DAD

yel, toxum gətirdi
torpaq, qucağında bəslədi
su,
susamağını söndürdü
od dedi: qışdan
savunaram
dedi: Başqa nə?
Gözlərini tapdadılar
sevgi hələ ağız açmamışdı
suallar at çapdırırdılar

## YENƏ DƏ DİLƏK

Çıxmaq üçün endik
Olduğumuz zirvələrdən
Qanadı verdilər sənə
Uçmaq nisgilini mənə
Ayağı verdilər sənə
Uçmaq diləyini mənə
İndi yalvarıram sənə
Geri qaytar məni,
Olduğum zirvələrə